# ŞƏRƏF VƏ QƏHRƏMANLIQ SALNAMƏSİ

**"Əsl vətənsevər kəslər o şəxslərdir ki, bütün hərəkətlərini vətənpərvərliyə hesablayırlar"**

*M.F.Axundzadə*



*Mahmud ALLAHMANLI*
*filologiya elmləri doktoru,*
*professor*

44 günlük Vətən müharibəsi xalqın şərəf və qəhrəmanlıq tarixidir. Cahanşümul dövlət düşüncəsilə yaşayan millətin milli kimliyinin nümayişidir. Prof. Həcər Hüseynovanın "44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda" (Bakı, Füyuzat, 2025) monoqrafiyası bu qəhrəmanlığın ədəbi-mədəni mühitdə dərkinin açımına həsr olunmuşdur. Artıq ikinci Qarabağ savaşından beş il vaxt keçir və bu zaman müddətində bədii düşüncədə bir-birindən maraqlı poetik örnəklər, nəsr, nəzm nümunələri, kinosenarilər, rəsmlər yaranmışdır. Bundan sonra da xalqın qəhrəmanlıq tarixinin ən parlaq səhifələrindən olan 44 günlük savaşla əlaqədar bir-birindən maraqlı ədəbiyyat, sənət nümunələri yaranacaqdır. Dilçi alimimiz H.Hüseynova bunları ümumiləşdirmələrlə təhlilə cəlb etmiş və maraqlı bir kitabı ortaya qoymaqla diqqəti bu istiqamətli təhlillərə yönəltməyə çalışmışdır.

İyirminci yüzillik Azərbaycan xalqının tarixində ağrı-acılarla, faciələrlə, dabanbasaraq birbirini izləyən ağlagəlməz ictimai-siyasi proseslərin mürəkkəbliyi ilə diqqət önünə gəlir. Sovet bolşevizminin hər cür gərginliklərini yaşayan toplumlar proseslərin mürəkkəblik tendensiyasında özünüdərk və milli kimlik səviyyəsində yaşanan dəhşətlərin xronikal xarakterini bir tarix olaraq içindən keçirmişdir. Azərbaycanda isə bu prosesin gedişi daha mürəkkəb və çoxqatlı imperiya strategiyasına hesablanmaqla yaşanmışdır. Çarizmin işğalçılıq siyasətinin davamı olaraq meydana çoxan bolşevizm Azərbaycana qarşı olmazın əzabları, işgəncələri xalqın yaddaşına yazmışdır. Bir növ Azərbaycan sovetlər imperiyası üçün işgəncə poliqonu olmuşdur. Axıska türkləri, Krım tatarları və digər türk toplumları da eyni yanaşma ilə sınağa çəkilmişdir.

Azərbaycanın tarixi torpaqlarının məqsədli şəkildə işğalı, soydaşlarımızın dədə-baba yurdlarından qovulması, Qarabağın rus imperiyasının himayədarlığı ilə ələ keçirilməsi və insanlarımızın yaşadığı acılar son olaraq 44 günlük müharibəyə gedişin siyasi-ideoloji, tarixi-fəlsəfi konsepsiyasını hazırlamışdır. Türk Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürk vurğulayırdı ki, "sovetlər birliyi içərisində hər biri bir cümhuriyyət olacaq əsl türk qardaşlarımız vardır. Bir gün gələcək hər biri birər bağımsız türk cümhuriyyəti olacaqdır. O zaman böyük Türkiyə Cümhuriyyəti bu qardaşlarımıza yardımçı olacaq və yol göstərəcəkdir". Bu tarixi fikirlər iyirminci yüzilliyin sonlarında baş verənlərlə bir daha özünün təsdiqini tapdı. Azərbaycan, eləcə də digər türk toplumları öz müstəqilliyinə qovuşdu. Bugünkü birlik nümayişi həmin təsəvvürün, genetik yaddaşın oyanışı və hərəkətliliyi üçün nümunədir. 44 günlük Qarabağ savaşı timsalında Həcər Hüseynovanın yazdığı monoqrafik araşdırma da bunun bir örnəyidir. Tədqiqatçı da həmin prosesləri konkret nümunələrdən çıxış edərək təhlilə gətirmişdir.

Türk xalqlarının, eləcə də dünya xalqlarının savaş tarixinə Azərbaycan əsgərinin iyirmi birinci yüzilliyin ikinci onilliyində yazdığı qəhrəmanlıq,




igidlik və sücaət zaman-zaman ədəbiyyatın yazılı qolunu izləyəcək əsərlərlə diqqət önünə gəlməsi şübhəsizdir. Şəhidlərimizin, qazilərimizin və bütünlükdə xalq birliyinin nümunəsi olan bu savaş kitablara qızıl hərflərlə yazılacaq bir qəhrəmanlıq örnəyidir. Azərbaycan xalqı iyirminci yüzilliyin səksəninci illərinin axırlarından yaşadığı acıları ikinci Qarabağ savaşı ilə cavablandırdı. Prof.H-.Hüseynova gəlinən yolun polifoniyasını diqqət önünə gətirərək çox doğru olaraq qeyd edir ki, "44 günlük Vətən savaşına gedən yol və 44 günlük savaşın siyasi-ideoloji, hərbi-taktiki (strateji), dini-fəlsəfi, milli-mənəvi formulası bütünlükdə yeni dünya düzəninə ötürülən bir mücahidlik nümunəsi idi. Hadisələrin xronotop şəklində dərki və dünyaya təqdimi təkcə türk xalqları səviyyəsində deyil, bütünlükdə dünya xalqları səviyyəsində kimliyin ortaya qoyulması idi. Xalq olaraq "bilsin ana torpaq, eşitsin vətən, müsəlləh əsgərəm mən də bu gündən" çağrışının və etnoenerjisinin müəyyənləşdirdiyi yaşam konsepsiyası idi". Tədqiqatçı alimin "44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda" monoqrafiyası bütün aspektləri ilə həmin savaşda yaşananları və xalqın birliyini bir ziyalı olaraq təqdimə köklənir.

Professor Həcər Hüseynovanı ədəbi-mədəni mühit daha çox dilçi alim kimi tanıyır. Azərbaycan dilinin aktual problemlərilə bağlı çoxlu sayda araşdırmaları vardır. "44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda" kitabı onun ədəbiyyatşünas məfkurəsinin mahiyyətində olanları diqqət önünə gətirir. Ümumiyyətlə, müxtəlif zaman kəsiklərində yazdığı təhlil yazılar, ayrı-ayrı sənətkarların əsərlərinin dil, üslub xüsusiyyətlərini tədqiqi, sənətkarlıq məsələlərinə həsr olunmuş fundamental araşdırmaları ədəbiyyatşünaslıq fəaliyyətinin dinamiklik mənzərəsini sərgiləyir.

"44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda" kitabındakı müxtəlif başlıqlar altında aparılan təhlillər ("Tariximizi unutmayaq", "44 günlük Vətən müharibəsinə gedən yol: milli azərbaycançılıq məfkurəsi", "44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda", "44 günlük Vətən müharibəsi haqqında elm xadimlərinin fikirləri", "Mahirə Hüseynovanın (Nağıqızının) bədii yaradıcılığında 44 günlük Vətən müharibəsi", Rafiq Yusifoğlu "Zəfər dastanı", "Sabir Rüstəmxanlı "Qarabağa dönüş", "Teymur Kərimli "Şuşanamə", "Hər şəhid məzarı özü vətəndir", "Qarabağ Azərbaycandır") fundamental xarakteri və dövlətçilik məfkurəsinin ümumi mahiyyətində yaşananlar və milli kimlik düşüncəsinin funksionallığı baxımından bir əvəzsizlik sərgiləyir. Bu təhlillər özlüyündə H.Hüseynovanın baş verənlərə münasibətinin ifadəsi və ziyalı mövqeyinin nümayişi olaraq diqqət önünə gəlir.

Bədii düşüncə bütün səviyyələrdə milli məfkurənin formalaşmasında başlıca rol oynamışdır və ədəbiyyatın şifahi, həm də yazılı qolu müxtəlif formalarda bunu ifadəni bir məqsəd olaraq reallaşdırmağa çalışmışdır. Klassiklərin yaradıcılığı, qəhrəmanlıq dastanları və xalq arasında dolaşan rəvayət, əfsanə, nağıl, bayatı, şərqi örnəkləri yaşananların əks-sədası kimi yaddaşlarda öz izini qoymuşdur. Birinci və İkinci Qarabağ müharibəsində xalqın birliyi, qəhrəman oğulların yazdığı qəhrəmanlıq dastanı bir tarix olaraq ədəbi prosesə istiqamət vermək xüsusiyyətilə aparıcılığı diqqət önünə gətirir.

Ümumiyyətlə, bədii düşüncə bütün hallarda ictimai-siyasi prosesləri qabaqlamaq və ona istiqamət verə bilmək, olacaqların həyacanını car etmək baxımından müstəsna funksiya ilə görünür və bir tarix olaraq şərtlənir. Son dövrün mürəkkəb situasiyalarında da ədəb-mədəni mühit bu funksiyanı öz üzərinə götürməklə öncüllük sərgiləyir. Məhz bu baxımdan "bədii düşüncənin təqdim və təsir funksiyası hissi-emosional və duyğusal fakturası ilə təhtəlşüur səviyyəsində olanların hərəkətliliyinə, oyanış və dərkinə bağlanmaqla diqqət önünə gəlir. Azərbaycan şeiri bu baxımdan bütün mərhələlərdə bir mükəmməllik etnopotensiyası olaraq ruhun yaşamına və ötürülməsinə xidmət edir".

Qarabağ savaşı, itirilmiş tarixi torpaqlar və s. tarix, yaddaş olaraq xalqın məfkurəsinə arxaik qatdan gələn birlik, yurd, vətən və şahidlik modelini təkrarən cızmış və onun ayaq üstə dayana bilmək halını konsepsiya səviyyəsində işləmişdir. N.Həsənzadənin "Zəfər yolu", B.Sadığın "Zəfər simfoniyası", E.İbrahimin "Hadrut fatehi", A.Turanın "Zəfər nəğməsi", Ə.Quluzadənin "Qarabağ oyunu", R.Duyğunun "Bir oğul istəyir Vətən" və s. onlarla, yüzlərlə nümunələr xalqın içində kükrəyən Vətən sevgisinin harayıdı. Şəhidlərimizin, qazilərimizin, bütünlükdə xalqımızın mücahidlik, birlik və yaşam fəlsəfəsinin nümayişidir. Ədəbiyyatımız bu gün Qarabağ savaşı haqqında olan dastanın parçalarını yazır və heç şübhəsiz, onun həmin qəhrəmanlıq səviyyəsində təqdimi gələcəyin işidir. Prof. H.Hüseynovanın "44 günlük Vətən müharibəsi bədii ədəbiyyatda" monoqrafiyası yazılanların ümumi sistemini və ahəngini təhlilə gətirməklə ədəbiyyatşünas mövqeyini açıqlayır.

2025